DÜNYA

# Tusk: Rusiya Polşa sərhədində gərginliyi artırır

3 dəqiqə öncə




Donald Tusk

Sentyabrın 13-nə keçən gecə Rusiyanın Polşa-Ukrayna sərhədi yaxınlığına dronlarla hücumlarından sonra Moskvanın fəaliyyətində eskalasiya artıq fakta çevrilir. Bunu Polşanın baş naziri **Donald Tusk** deyib. O, hökumətin təhlükəsizlik mərkəzində təcili müşavirə çağırıb.

**"Rusiya Federasiyası tərəfindən eskalasiya artıq fakta çevrilir. Rusiya indi daha təhlükəli texnika tətbiq etməyə hazırdır. Burada reaktiv mühərrikli dronlardan danışıram. Onların uçuş məsafəsi və dəqiqliyi narahatlıq doğurur"**, – Tusk bildirib. Onun sözlərinə görə, Ukrayna ərazisində 13 obyekt vurulub.

Polşanın baş naziri xəbərdarlıq edib ki, qarşıdakı həftələr və aylar Moskvanın "çox intensiv fəaliyyət" dövrünə çevrilə bilər. Onun sözlərinə görə, eskalasiyanın Polşa ərazisinə də təsir göstərəcəyi istisna oluna bilməz. Bu halda Varşava və onun NATO üzrə müttəfiqləri birgə cavab verməyə hazır olmalıdırlar.

Tusk onu da deyib ki, qarşıdakı aylarda sərhəd-keçid məntəqələrində xüsusi rejim tələb ediləcək.

Rusiyanın 13 sentyabr hücumu nəticəsində Kiyevdən Polşaya gedən qatar dayandırılıb, sərnişinlərin bir hissəsi təxliyə olunub.

"Der Spiegel" jurnalının yazdığına görə, qatarda Almaniya kansleri Fridrix Mertsin müşaviri Günter Zautter, Böyük Britaniyanın keçmiş baş naziri Boris Conson, digər Avropa ölkələrinin təhlükəsizlik məsələləri üzrə müşavirləri olublar. Onların arasında xəsarət alan olmayıb.




Donald Tramp təyyarəsində jurnalistlərə danışır

## Tramp Kiyevi Rusiyada dizel yanacağına hücumları dayandırmağa çağırır

ABŞ prezidenti **Donald Tramp** Ukrayna prezidenti Volodimir Zelenskini Rusiyada dizel infrastrukturuna zərbələri dayandırmağa çağırıb. Bu çağırış Rusiyanın Ukraynaya, o cümlədən Polşa sərhədi yaxınlığına davamlı hücumları fonunda səslənib.

**"Xeyli başqa hədəflər var. Dizel yanacağını vurmayın. Rusiyada dizel yanacağı obyektlərini sıradan çıxarmağı dayandırmalısınız"**, – Tramp sentyabrın 13-də İrlandiyaya səfəri zamanı jurnalistlərə deyib.

Ötən həftə Trampın xüsusi nümayəndələri Stiv Uitkoff və Cared Kuşner Kiyev və Moskvaya səfər ediblər. Vaşinqton müharibə aparan tərəfləri danışıqlar yolu ilə razılaşmaya yaxınlaşdırmağa çalışır.

Tərəflər danışıqları "məzmunlu" adlandırsalar da, cəbhədəki vəziyyət dəyişməyib. Soyuq havalar ərəfəsində Rusiya Ukraynada mülki, logistika və enerji infrastrukturuna zərbələr endirir.

Ukrayna da cavabında Rusiyada enerji və hərbi obyektləri uzaqmənzilli dronlarla hədəfə alır. Yayın əvvəlindən Ukraynanın dron zərbələri Rusiyada ölkəboyu yanacaq çatışmazlığına səbəb olub.

Sentyabrın 13-də səhər saatlarında Rusiya Ukraynanın Polşa sərhədi yaxınlığına iki dron zərbəsi endirib. Xəsarət alan olmayıb.

İlk zərbə Ukraynanın Volın vilayətində, Polşa ilə sərhəddə yerləşən Yaqodin keçid məntəqəsi yaxınlığındakı yanacaqdoldurma məntəqəsinə endirilib. İkinci zərbənin Polşa sərhədindən cəmi iki kilometr aralıda sərnişin qatarının lokomotivinə dəydiyi bildirilir. Yerli rəsminin sözlərinə görə, qatar Kiyevdən Varşavaya gedirdi. Ukrayna sosial şəbəkələrində yayılan videogörüntülərdə insanların dəmiryol stansiyasındakı partlayış yerindən qaçdığı görünür.

Ukraynanın dövlət dəmir yolu operatoru "Ukrzaliznitsya"nın məlumatına görə, dron zərbəsinin ilkin hədəfi, çox güman, Avropa rəsmilərini daşıyan "diplomatik qatar" olub. Onların arasında Böyük Britaniyanın keçmiş baş naziri Boris Consonun da olduğu bildirilir. Qurum əlavə edib ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş direktoru **Devid Petreus** həmin vaxt başqa bir qatarda olub.

"Petreus" "The New-York Times"a bildirib ki, Rusiya dronlarının səsini, daha sonra isə partlayışı eşidib və sərnişinlər dərhal təxliyə olunublar.

**"Atəşə tuş gəlməyənlər üçün bu, dəhşətli idi... Bu, Ukrayna mülki əhalisini qorxutmağa çalışan barbar bir liderin əməlidir"**, – Petreus deyib.

Hadisələr zamanı Polşanın bir neçə şərq rayonunda hava hücumu xəbərdarlığı elan edilib.

Polşa hava məkanının pozulması barədə məlumat verilməsə də, Polşa Silahlı Qüvvələrinin Operativ Komandanlığının sözçüsü Yatsek Qorişevski Polşa üçün təhlükənin real olduğunu deyib.




**Российские дроны атаковали запад Украины у границы с Польшей**

Дрон попал по локомотиву пассажирского поезда, следовавшего из Киева в Варшаву, в двух километрах от границы с Польшей на Волыни близ пропускного пункта Ягодин, сообщают украинские СМИ. Видео удара распространяется в украинских телеграм-каналах. Пострадавших нет — мониторинговая группа заранее предупредила поездную бригаду об угрозе. В «Укрзализныце» отметили, что удары по железной дороге наносятся второй день подряд.

Глава МИД Украины Андрей Сибига назвал удар по Ягодину «террором Путина, который стучится прямо в двери ЕС и НАТО», и призвал партнеров отказаться от компромиссных решений.

67.4K Sep 13 at 09:03

## "NATO-nun qapısını döyən terrorudur"

Rumıniya hakimiyyəti isə sentyabrın 13-də bir dronun ölkə ərazisinə daxil olduğunu bildirib. Litva mümkün dron görünməsi barədə xəbərdarlıq elan edib, paytaxt və ətraf regionların sakinlərini sığınacaqlara getməyə çağırıb.

Vilnüsdəki əsas hava limanı bağlanıb, NATO qırıcıları havaya qaldırılıb. Xəbərdarlıq bir saat ərzində ləğv edilib.

**"Rusiyanın Ukrayna-Polşa sərhədində, Yaqodina barbar zərbələr təkcə dövlət sərhədlərimizə hücumların davamı deyil. Bu, Putinin birbaşa Avropa İttifaqı və NATO-nun qapısını döyən terrorudur"**, – Ukraynanın xarici işlər naziri **Andriy Sıbiqa** sentyabrın 13-də X sosial şəbəkəsində yazıb.

O, Avropa liderlərini Rusiyaya qarşı sanksiyaları "bütün ağırlığı ilə" işə salmağa çağırıb.

Bu ayın əvvəlində Almaniya Leypsiq hava limanında partlayıcı maddələrlə yüklənmiş dronlar aşkarlayıb, bu hadisə uçuşların dayanmasına səbəb olub. Berlin insidentə görə Moskvanın məsuliyyət daşığını bildirib. Avropa Komissiyasının prezidenti **Ursula fon der Lyayen** onda demişdi ki, "avropalılar acı bir həqiqətlə üzləşiblər: bu, yeni reallıqdır".

**"Məhz bu zərbələrin Avropaya daha çox yayılmasının qarşısını almaq üçün ukraynalı kişilər və qadınlar hər gün döyüşür, həyatlarını qurban verirlər"**, – Ukrayna prezidenti **Volodimir Zelenski** sentyabrın 13-də Telegram-da yazıb.

"Rusiya terroru çoxları üçün ortaq təhlükədir, lakin onu məhz burada – Ukraynada məğlub etmək olar və lazımdır", – o əlavə edib.

Zelenskinin sözlərinə görə, ötən həftə ərzində Ukraynadakı hədəflərə ümumilikdə 2 min 100 dron, 1 min 700 idarəolunan aviasiya bombası və 73 raket buraxılıb.

Ötən gün Ukraynanın bir sıra qərb regionlarına da hücumlar olub.

Rusiya Müdafiə Nazirliyi "hərbi yüklərin çatdırıldığı və bölüşdürüldüyü logistika mərkəzlərini, onların fəaliyyətini təmin edən enerji obyektlərini" hədəfə aldığını iddia edib. Nazirlik Ukraynanın qərbindəki dəmir yolu infrastrukturuna da zərbələr endirildiyini bildirib.

Rusiya genişmiqyaslı işğal zamanı mülki əraziləri hədəfə aldığını inkar edir, ancaq zərbələrin minlərlə insanın ölümünə səbəb olduğuna dair çoxsaylı sübutlar var.

## Buna da bax:

Tramp: Putin Ukrayna ilə bağlı razılaşma əldə etmək istəyir

ABŞ elçiləri Moskvaya və Kiyevə səfər ediblər. Keçmiş səfirlər irəliləyiş görmürlər

Zelenski sentyabrda Trampla görüşəcəyinə ümid edir

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur